# ALİ TƏHSİL SİSTEMİNİN TƏŞƏKKÜLÜ, İNKİŞAFI VƏ MÜASİR PROBLEMLƏRİ

**Şəfəq Şahməmmədova,**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
ADU
E-mail: shafaqsse@mail.ru

**Rəyçilər:** *psixol.ü.elm.dok., prof.* S.İ. Seyidov,
*psixol.ü.elm.dok., prof.* R. Əliyev

***Açar sözlər:*** *fəaliyyət istiqamətləri, özünüdərketmə, şəxsiyyət, inkişaf, humanistlik, təşəkkül*
***Ключевые слова:*** *направления деятельности, самопознание, личность, развитие, гуманность, становление*
***Key words:*** *activity directions, the selfcognition, the person, development, humanity, formation*

Ali təhsil sisteminin tarixi aspektdə araşdırılması onun yaranmasının, keçdiyi inkişaf yolunun, müasir vəziyyətinin dərk olunması, eyni zamanda onun gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu, həm də təhsilin forma və metodlarının, metodologiyasının necə dəyişməsi, cəmiyyət həyatı ilə uzlaşdırılması baxımından da zəruri şərtlərdəndir. Digər bir amil kimi onu da qəbul etmək olar ki, bir çox hallarda artıq tarixiləşmiş bir sıra biliklər, forma və metodlar bu gün üçün daha məqbul sayıla bilər, nəinki müasir hesab edilən.

Bəs, məktəblərin yaranmasına, onun metodologiyası və istiqamətlərinin müəyyənləşdirilməsinə nə səbəb olmuşdur? Tədqiqatçılar onun başlıca səbəbi kimi cəmiyyətin inkişaf səviyyəsini göstərirlər. Hələ eramızdan əvvəl (VI-IV əsrlərdə) Roma və Yunanıstanda indiki ali təhsil sisteminin sələfləri hesab edilə bilən məktəblər yarandı. Qədim Yunan filosofları Pifaqor, Sokrat, Platon, Aristotel və b. öz dərnəklərini (lisey və akademiya) yaradaraq gənclərə öz təlimlərini öyrədir, öz fəlsəfi görüşlərini müzakirə edirdilər. Qədim Yunan ali məktəblərinin xarakterik xüsusiyyəti onun humanitar istiqamətdə olması idi. Biliklər adətən fəlsəfənin sahələrini əhatə edirdi. Hətta riyaziyyat, fizika, psixologiya, pedaqogika, məntiq, coğrafiya fəlsəfənin qolları sayılırdı. Eyni zamanda elm və təhsil vəhdət təşkil edirdi. Qədim dövrün mütəfəkkirləri həm də məşhur müəllimlər olmuşlar. Bu sırada Evklid, Arximed, Hippokrat və başqalarının adlarını çəkmək olar.

Platon hesab edirdi ki, hökmdar təhsilinə, dəyərlər şkalasına, şəxsi keyfiyyətlərinə görə idarə etdiyi adamlardan yüksəkdə durmalıdır. Onun fikrincə, hakim sinif iqtisadiyyatla bağlı təmkinli olmalıdırlar ki, idarə etdikləri adamları çox da istismar etməsinlər, bu onlarla ünsiyyətdə qəzəbə, kinə səbəb olar. Hakimiyyətdə olanlar sərtliklə yumşaqlığı vəhdətdə götürməlidirlər. Platon bunları hakim sinfin tərbiyə edilməsində vacib şərtlərdən sayırdı.

Sokrat tələbələrinə şeylər haqqında səhv təsəvvürlərdən xilas olmaqla tədricən həqiqətən dərk olunmasını, daha doğrusu onların özlərinin bu qənaətə gəlmələrini öyrədirdi. Başqa sözlə, öyrədilən mərhələ-mərhələ suallara cavab verməklə müstəqil şəkildə həqiqəti dərk edirdi. Yeri gəlmişkən müasir dövrdə kurikulum tələblərinə uyğun olaraq təhsil alanların idrakı fəallığının yüksəldilməsində fərqli formada Sokrat metodundan istifadə olunur.

Eramızın I əsrində Kvintilian (42-118) didaktika sahəsində ilk dəfə olaraq 12 kitabdan ibarət "Natiqlik tərbiyəsi haqqında" əsərlər yazdı. O, bu əsərlərdə təlimin pedaqoji-psixoloji əsaslarını, təlimin öyrədilənin imkanlarına uyğunluğunu, təlimdə uğur qazanmağa cəhd (təlim motivasiyası) məsələlərini şərh edirdi.

Eramızın 476-cı ilində Roma imperiyasının dağılmasıyla məktəblər də dağıldı, azad fikir boğuldu, bir çox insanlar tonqalda yandırıldı. Kitabxanalar və qiymətli kitablar məhv edildi. Bununla yanaşı istehsal sahələri yarandı və inkişaf etməyə başladı.

İstehsal sahələrinin yaranması ilə cəmiyyətin təhsilli insanlara tələbatı da yarandı. Beləliklə, artıq XII əsrdə ilk universitetlər, Bolonya və Salerno yarandı. Daha sonra Oksford (1168),

Paris (1200), Kembric (1209), Sarbon (1253) universitetləri fəaliyyətə başladı.

Bütün orta əsr universitetlərində dörd fakültə: incəsənət, ilahiyyat, hüquq və tibb fakültələri fəaliyyət göstərirdi. Onlardan birincisi hazırlıq sayılırdı. Burada yeddi sərbəst incəsənət olan trivium (qrammatika, ritorika və dialektika) və kvadrivium (riyaziyyat, coğrafiya, astronomiya və musiqi) öyrədilirdi. Yalnız bundan sonra üç fakültədən biri seçilə bilərdi. Lakin ilahiyyat fakültəsi daha nüfuzlu sayılırdı.

Təlimin əsas forması mühazirə idi. Mühazirənin ümumi planı Aristotelin məntiqi sxeminin əsasında qurulurdu. Bu, antik dövrdəki mühazirə-söhbətdən bir addım geri çəkilmə hesab edilir. Təlim forması dini kitablardan və ya Aristotelin əsərlərindən ayrı-ayrı mətnlərin oxunmasından ibarət idi. Mətn oxunduqdan sonra onun izahı və şərhi verilirdi.

Orta əsrlərin sonuna yaxın antik mədəniyyətə yenidən maraq artır, insana maraq ön plana keçir və beləliklə humanist pedaqoji cərəyan yaranır.

İslahatçı – pedaqoqlar içərisində Y.A. Komenskinin xidmətləri xüsusi qeyd olunur. O, təlim və tərbiyənin əsasını işləyir. Onu da göstərmək lazımdır ki, Y.A. Komenskinin ideyalarının bəziləri müasir dövrdə də aktuallığını itirməyib.

Burjua inqilabları pedaqogikanın inkişafına yeni təkan verdi. C. Lokk (1632-1704) özünün pedaqoji nəzəriyyəsi ilə “centlmenlər” tərbiyəsi sistemini yaratdı. Bu sistemdə fiziki və mənəvi tərbiyənin vəhdəti ideyası irəli sürülür. J.J. Russonun pedaqoji əsərlərində isə demokratiya və özünüinkişaf ideyası öz əksini tapır. Rusiyada da təhsildə yeni yol axtarışı başlanılır. 1726-cı ildə Sankt-Peterburqda Akademik Universitet açılır.

1755-ci ildə M.V. Lomonosovun ciddi səyi nəticəsində Moskva Universiteti yaradılır. Universitet üç fakültə: fəlsəfə, hüquq və tibb fakültələri ilə fəaliyyətə başlayır.

İnsanın təbii gücü olan özünüinkişaf ideyasının yaradıcısı İ.Q. Pestalossi təlim və tərbiyənin yeni istiqamətini müəyyənləşdirdi. Rusiya Universitetlərində onun ideyalarına istinad edilməyə başlandı.

Bütün dünyada institut və ali təhsil sistemi dərinləşdirilmiş ixtisaslaşma və diferensiasiya əsasında qurulmuşdur. Lakin istənilən inkişaf dalğavari formada baş verir.

XIX əsrin 60-70-ci illərində demokratik ruhlu ziyalılar, ictimai-siyasi xadimlər təhsil sistemində yeni yolların tapılması və tətbiqi məsələləri ilə ciddi şəkildə məşğul olmağa başladılar. Təxminən eyni vaxtda Rusiyada ali təhsillə bağlı N.İ. Piroqovun “Məktəb və həyat”, “Universitet məsələləri”, D.İ. Pisarevin “Bizim universitet elmi”, L.N. Tolstoyun “Tərbiyə və təhsil” adlı məqalələri çap olunur. N.İ. Piroqov universitetlərdə sərbəstliyin verilməsi, mühazirələrə məcburi davamiyyətin ləğv edilməsini, elm və təhsilin vəhdəti və s. məsələləri qaldırır.

Sovet ali təhsil sisteminin böyük nailiyyəti kimi çoxsaylı ali təhsilli kadrların hazırlanmasını göstərmək olar. Bu kadrlar hərtərəfli biliyə və kifayət qədər dərin ixtisaslaşmış biliyə yiyələnirdilər. Lakin bir cəhəti mütəxəssislər xüsusi qeyd edirlər ki, bu biliklər səpələnmiş formada olurdu. Yəni Ali təhsil almış kadrların heç də hamısı yox, yalnız təhsildən sonra müstəqil şəkildə sistemli bilik əldə edənlər yüksək mütəxəssis olurdular.

İdeoloji sistemin elm və təhsilə vurduğu ziyan isə dəhşətli dərəcədə idi. Həmin dövrdə yalnız görkəmli elm və təhsil işçilərinin repressiyaya uğramasından deyil, həm də bütövlükdə sistemin repressiyaya uğramasından danışmaq olar.

“Əgər ideoloji-siyasi kompaniyanın birinci mərhələsində abstrakt “xalq düşmənindən” danışılırdısa, artıq 30-cu illərin ortalarında konkret adlar, ünvanlar göstərilirdi. Marksizm-Leninizm klassiklərinin ideyalarının kor-koranə, zorakılıqla elmə gətirilməsi, bütün sahələrə tətbiq edilməsi, partiyanın ideoloji-siyasi xəttinin həyata keçirilməsi primitiv şəkildə qanuniləşdirilirdi” (2, 57).

SSRİ-də ideoloji mübarizə getdikcə kəskinləşir, vəziyyət ağırlaşırdı. O vaxtlar universitet və institutlarla yanaşı, ayrıca Qırmızı Professorlar İnstitutu da fəaliyyət göstərirdi. Bura yalnız sınanmış partiyaçıları qəbul edirdilər.

UİK(b)P MK-nın “Xalq Maarif Komissarlıqları sistemində pedoloji təhriflər haqqında” 1936-cı il 4 iyul tarixli qərarı elm və təhsil sahəsində əsaslı dəyişikliklərə səbəb oldu. Ayrı-ayrı elm sahələri, eləcə də çoxsaylı elm, təhsil işçiləri tənqid və özünütənqidə məruz qaldılar. 30-cu illərdə ittifaqda, o cümlədən Azərbaycanda bu proses geniş vüsət almışdı. A.O. Makovelski, F.Ə. İbrahimbəyov, Ə.K. Zəkuyev kimi gör-

kəmli alimlər səhv yolda olduqlarını, hətta əvvəlki illərdə səhv mövqe tutduqlarını "etiraf" etmək məcburiyyətində idilər.

Elm və təhsil müəssisələrinin sərbəstliyi məhdudlaşdırıldı. Hesab edilirdi ki, sovet marksist pedaqoqları cəmiyyət quruculuğunda yaxından iştirak etməlidirlər. Ali təhsil sistemində sərbəstlik kapitalist dünyasına xidmət kimi qiymətləndirilirdi və bu çox təhlükəli sayılırdı. Təhsilin humanistləşdirilməsi tələbə hərəkatına imkan verə bilərdi.

Müasir dövrdə gənclərin təhsili xüsusi aktuallıq kəsb edir. Bunun üçün ali təhsilin özünün prinsip, məqsəd və mahiyyəti açıq-aydın təsəvvür edilməlidir. Deməli, təhsilin pedaqoji paradiqmaları müəyyənləşdirilməlidir. Pedaqoji elmlər sistemində təhsilin mahiyyət və məzmununu əhatə edən üç paradiqma göstərilir.

1. Elmi-texniki paradiqma. Onun əsasında həqiqətin konkret elmi əsaslarla sübutu dayanır və bu, praktikada sınaqdan keçirilir.

Hər bir tələbənin idraki qabiliyyətləri müxtəlif sahələr üzrə fərqlidir. Bununla belə onların hər birinin potensialı genişdir. İnsanın yaradıcılığa və idraki fəaliyyətə meyli adətən güclü olur. Lakin tələbələrdə bu daha yüksəkdir. Deməli, tələbənin fərdi-psixoloji xüsusiyyətlərini ilk növbədə nəzərə almaq lazımdır. Eyni zamanda şəxsiyyətin istiqamətini, qabiliyyətini nəzərə almaq lazımdır ki, onun təlim fəaliyyətini səmərəli şəkildə qurmaq mümkün olsun. Tələbəni başa düşmək üçün onunla qarşılıqlı münasibət və ünsiyyəti əməkdaşlıq və hörmət üzərində qurmaq lazımdır.

Elmi-texniki paradiqmada pedaqoji texnologiya kimi müəllimin monoloqu əsas götürülür.

2. Humanist paradiqma. Onun əsasını həqiqətin axtarışı təşkil edir. Bu paradiqmada "Bilik gücdür" devizi yox, "Dərketmə gücdür" əsas sayılır. Mühüm pedaqoji texnologiya isə dialoqdur.

3. Ezoterik paradiqma. Onun əsasında dərk etmə yox, əldə etmə dayanır. Tələbələrin hazırlanmasında onun daxili aləminə nüfuz etmə, onda lazım bilinən keyfiyyətləri formalaşdırmaq əsas götürülür.

Hal-hazırda Azərbaycanda ali təhsil sistemində elmi-texniki pedaqoji paradiqmadan humanist paradiqmaya keçid prosesi gedir.

XX əsrin ortalarında psixoloq, filosof və sosioloqlar (K. Rocers, E. Erikson, E. Fromm, A. Maslou və b.) belə qənaətə gəldilər ki, şəxsiyyətin yaradıcı fəallığı özünütəsdiq və özünüreallaşdırmağa xidmət etməlidir. Bunun üçün o, fasiləsiz olaraq özünütəkmilləşdirmə və özünügerçəkləşdirməyə cəhd etməlidir. Təbii ki, burada bir tərəfdən təhsilin mahiyyəti dəyişməli, bunun üçün münbit şərait yaradılmalıdır. Digər tərəfdən əməkdaşlıq, humanizm və demokratik prinsiplərə əməl olunmalıdır. Hesab edirdilər ki, özünüinkişaf üçün ən yaxşı üsul qarşılıqlı münasibət və qarşılıqlı təsirin humanistləşdirilməsidir.

Təhsil sisteminin tarixi şərhindən də göründüyü kimi o, tarixən sərt qaydaların qoyulduğu qapalı bir sistem olmuşdur. Doğrudur, tarixin bütün dövrlərində görkəmli mütəfəkkirlər, filosof, pedaqoq və psixoloqlar (C. Lokk, J.J. Russo, C. Darvin, Q. Spenser, E. Erikson, A. Maslou, K. Rocers və b.) pedaqoji sistemin açıq olmasının nəzəriyyəsini, elmi-pedaqoji əsaslarını hazırlamışlar.

Təhsildə birtərəfli yanaşma tələbələrin tənbəl və ya çalışqan, güclü və ya zəif kimi bölünməsinə səbəb olur. Bu da qarşılıqlı münasibətlərdə neqativ nəticələrə gətirir. Professor Ə.Ə. Əlizadə yazır: "Məktəb həyatının humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün ana xətti kimi özünü göstərir. İnsan amili ancaq bu yolla məktəb həyatına nüfuz edib önəmli pedaqoji məna kəsb edə bilər" (4, 30).

Ə.Ə. Əlizadəyə görə, təbii ki, təhsilin humanistləşdirilməsi ilk növbədə qarşılıqlı münasibətlərin humanistləşdirilməsidir.

Bir çox hallarda təhsilin humanistləşdirilməsi dedikdə humanitar fənlərin nisbətinin çoxaldılması və ya bu sahədə xüsusi fənlərin keçilməsi başa düşülür. Əslində isə söhbət bütöv sistemin, təhsil prosesinin tədris olunan fəndən, ixtisasdan asılı olmayaraq humanistləşdirilməsindən gedir. Əgər belə olmasaydı texniki universitetlərdə təhsilin humanistləşdirilməsindən söhbət belə gedə bilməzdi.

Ali təhsil sistemində başlıca məsələlərdən biri də təhsilin məzmunudur. Təhsilin məzmununun reallaşdırılması isə ilk növbədə onun təşkilindən və müəllimlərin səriştəliliyindən asılıdır.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilir ki, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında

aparıcı mövqe tutmaq üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilməlidir. "Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir" (8).

Tədqiq etdiyimiz problem baxımından Azərbaycanda da ali təhsil sisteminin yaranmasının, keçdiyi inkişaf yolunun, müasir dövrdə aparılan islahatların, dövlətin təhsillə bağlı apardığı siyasətin öyrənilməsini məqsədəuyğun hesab edirik. Bu, bir tərəfdən mövcud vəziyyətin öyrənilməsi, digər tərəfdən də gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda ali təhsilin tarixi 1919-cu ildə cəmisi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin təsis etdiyi Bakı Dövlət Universitetinin yaranması ilə başlayır. Lakin bununla bərabər həmin dövrədək yaradılmış xeyli sayda qəza məktəblərinin fəaliyyəti ilə bağlıdır.

XX əsrin əvvəllərində Azərbaycanda ali təhsil müəssisəsi olmasa da sonralar Azərbaycanın ictimai-siyasi həyatında, təhsilin, elmin, mədəniyyətin inkişafında müstəsna xidmətləri olmuş ziyalılardan H. Zərdabi, Ə. Hüseynzadə, Ə. Ağayev, N. Vəzirov, N. Nərimanov və digər çoxsaylı ziyalılar Rusiya, Türkiyə və Avropada təhsil almışlar.

Xalq Cümhuriyyəti yarandığı ilk günlərdə Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin Qazaxa köçürülməsinə çalışdı. Nəhayət ki, bu iş Firudin bəy Köçərlinin səyi və köməkliyi ilə baş tutdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq maarifinin yenidən təşkilinə ciddi diqqət yetirildi. Rusiya və Türkiyədə təhsil almış mütəxəssislər dəvət olundu. "Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut və Dövlət Konservatoriyasının açılması üçün müəyyən təşkilati işlər aparılsa da, o dövrdə yaranmış tarixi-siyasi şərait yalnız Bakı Dövlət Universitetini (1919-cu il) təsis etməyə imkan verdi" (5, 35).

Ali təhsilli milli kadrların hazırlanması məqsədilə azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil alması məsələsi də diqqətdən kənarda qalmadı. "Dövlət hesabına xaricə ali təhsil almağa göndərilən tələbələrdən başqa, Parlament Komissiyası tərəfindən 31 nəfər əlavə abituriyent də seçilmişdi ki, onların da böyük əksəriyyəti öz hesabına, yaxud mesenatların maliyyə dəstəyi ilə Qərbi Avropa ölkələrinin ali məktəblərinə göndərildi" (5, 36).

Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə bütün digər sahələrdə olduğu kimi təhsil sahəsində də yeni dövr başlandı. Əhali arasında savadsızlığın ləğvi üçün ciddi işlər aparıldı. Ali təhsil alanların "proletarlaşdırılması" yolu tutuldu. Yəni ali məktəblərə qəbulda fəhlə-kəndli gənclərə üstünlük verildi. Bakı Dövlət Universitetinin nəzdində 1920-ci ilin dekabrında fəhlə fakültəsi yaradıldı. Bu fakültənin yaradılmasında başlıca məqsəd fəhlə-kəndli gəncləri ali məktəbə hazırlamaq idi. 1921-ci ildə Bakı Politexnik Pedaqoji İnstitutu yaradıldı.

26 avqust 1921-ci ildə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun imzaladığı dekretlə Azərbaycan Dövlət Pedaqoji İnstitutu yaradıldı. Bu, 6 nəfər tələbə ilə milli dildə fəaliyyətə başlayan ilk pedaqoji institut idi. Fətulla bəy Rzabəyli institutun ilk direktoru oldu.

"Orta məktəblərdə xarici dil fənlərindən dərs deyən yüksək ixtisaslı müəllimlər hazırlamaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının 1937-ci il 5 mart tarixli 171 saylı əmri ilə V.İ. Lenin adına APİ-də və İkiillik Müəllimlər İnstitutunda həmin ilin sentyabr ayının 1-də Xarici dillər fakültəsi və kafedrası açıldı.

1938-ci il 2 noyabr tarixdə Xalq Maarif Komissarlığının əmri ilə APİ-nin nəzdindəki İkiillik Müəllimlər İnstitutu müstəqil instituta çevrildi.

"1930-cu ildə Azərbaycan Dövlət Universiteti 4 müstəqil ali məktəbə (Tibb İnstitutu, Pedaqoji İnstitut, Sovet Quruculuğu və Hüquq İnstitutu, Kooperativ Ticarət İnstitutu) ayrıldı. Bununla yanaşı, Bakıda Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu (1930) və bir sıra ali məktəb və filiallar təsis edildi" (5, 38). Daha sonra Azərbaycan Sənaye İnstitutu və Azərbaycan Xalq Təsərrüfatı İnstitutu yaranır.

1959-cu ildə ali təhsil müəssisələrinin fəaliyyətini əlaqələndirmək və rəhbərlik etmək Ali və Orta İxtisas Təhsili Komitəsi yaradılır və 1962-ci ildə isə bu Komitə Ali və Orta İxtisas Nazirliyinə çevrilir.

1988-ci ildə Maarif Nazirliyi, Ali və Orta İxtisas Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi birləşdirilərək Xalq Təhsili Nazirliyi adı

altında fəaliyyət göstərir. 1993-cü ildə isə Xalq Təhsili Nazirliyinin adı dəyişdirilərək Təhsil Nazirliyi adlandırıldı.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra həyat və fəaliyyətin bütün sahələrində, o cümlədən ali təhsil sistemində əsaslı islahatlar aparıldı. İnkişaf etmiş dünya dövlətlərinə inteqrasiya etmək, milli-mənəvi dəyərlərin dirçəldilməsi, milli kökə qayıdılması üçün təhsil sisteminin üzərinə də yeni vəzifələr düşür. Təhsilin ümumbəşəri, eləcə də milli əsaslar üzərində qurulması, əmək bazarının tələblərinə cavab verə bilən yüksək ixtisaslı kadrlara ehtiyac artdı.

"Keçid dövrü təhsilə, təhsil sisteminə, onun sosial-psixoloji tərəflərinə də təsir göstərir. Bir tərəfdən insanlar dərk edir ki, sosializmdən fərqli olaraq indi biliklərə, elmə yeni tələblər verilir, yüksək ixtisaslı, səviyyəli, bilikli adamlara ehtiyac artır. Digər tərəfdən diplomlu, ali təhsilli, lakin qabiliyyəti, bacarığı olmayanlar tədricən sıradan çıxır. Belədə insanların getdikcə elmə, təhsilə, biliyə münasibəti dəyişir. Xüsusilə, texniki, xarici dil, iqtisadi bilikləri mənimsəmək ehtiyacı güclənir" (3, 12).

R.İ. Əliyev göstərir ki, müasir dövrdə təhsil həm də yeni həyat tərzinə uyğunlaşmaq vasitəsinə çevrilmişdir. İndi təhsil almaq heç də yalnız sosial statusun artması mahiyyəti daşımır. Bununla belə təhsil gələcək statusun yüksəldilməsi üçün bazis rolunu oynayır. Sovet hakimiyyəti dövründə nüfuzlu hesab olunan bir çox sahələr, eləcə də o sahədə təhsil almaq indi heç də nüfuzlu sahə sayılmır. İndi dövrün tələblərinə uyğun yeni sahələr yaranır. Deməli, o sahə üzrə təhsil almaq daha mötəbər hesab olunur.

Beləliklə, müasir dövrdə təhsil ikili mahiyyət daşıyır: iqtisadi vəziyyətin yaxşılaşması və yeni həyat tərzinə uyğunlaşmaq.

Deməli, ali təhsil sistemində aparılan islahatlar bir tərəfdən dövrün tələblərindən irəli gəlir. Digər tərəfdən də islahatlar müəyyən qədər dövrü, zamanı, onun tələblərini qabaqlamalıdır.

Bütün bu deyilənlərin həyata keçirilməsi üçün Azərbaycan dövləti bir sıra qanunların, qərarların işlənib hazırlanmasını, həyata keçirilməsini təmin etdi. Bu sahədə ilk və əsaslı qanun olan "Təhsil haqqında Azərbaycan Respublikasının qanunu" 2009-cu il 19 iyun tarixində qəbul edildi.

Təhsil haqqında Qanunun 22.1. maddəsində göstərilir: "Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı həyata keçirilir" (8, 31).

Qanunun 22.2. maddəsində ali təhsilin üç səviyyəsi: bakalavriat, magistratura və doktorantura səviyyələri göstərilir. Qeyd etmək istərdik ki, təhsilin magistratura səviyyəsinin qəbul olunması ali təhsil sistemində mühüm irəliləyiş sayıla bilər. Bu, eyni zamanda təhsilin Avropa təhsilinə inteqrasiyasında mühüm rol oynayır.

Ali təhsil sahəsində keçirilən islahatlar içərisində Bolonya prosesinə qoşulmaq xüsusi bir əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının 2001-ci ildə Avropa Şurasına üzv olması ilə prosesin tərkib hissəsi kimi Azərbaycan təhsilinin də Avropaya inteqrasiyası zərurəti yarandı və 2005-ci ilin 19 mayında Azərbaycan Bolonya prosesinə qoşulmuşdur.

Qloballaşma, inteqrasiya, təhsilin humanistləşdirilməsi ali təhsilin vəzifələrini də dəyişdirir. İndi kreativ, intellektual, müstəqil düşünməyi bacaran mütəxəssislərə ehtiyac artır. Bununla yanaşı, milli və mənəvi dəyərlər, səriştəli şəxsiyyətlər, vətəndaş mövqeyi olan mütəxəssislərin hazırlanması təhsilin keyfiyyət göstəricisi kimi dəyərləndirilir.

"Azərbaycan təhsil tarixində artıq tələbyönlü bir təhsil sistemi formalaşır. Cəmiyyətimizin ehtiyac və tələbatlarına uyğun belə bir təhsil sisteminin qurulmasında demokratikləşmə, humanistləşmə, inteqrasiya, diferensiallaşma, fərdiləşmə, humanitarlaşma mühüm pedaqoji prinsiplər kimi nəzərə alınır. Şəxsiyyətin maraq və ehtiyaclarını, arzu və istəklərini əsas götürməklə təhsil alanların mənafeyinə xidmət göstərmək ön plana çəkilir" (7, 12).

Bütün bu deyilənlər, aparılan islahatlar ali təhsil sistemində mühüm işlərin görüldüyünü, bununla bərabər qarşıda çox mühüm vəzifələrin durduğunu göstərir. Ali təhsil sistemində idarəetmənin dövlət-ictimai səciyyəsi, təhsilin şəxsiyyətyönlülüyü və nəticəyönlülüyü Azərbaycan təhsil siyasətinin əsasını təşkil edir.

**Problemin aktuallığı.** Təhsil sisteminin daha da yaxşılaşdırılması, təlim tərbiyə işinin, səriştəli kadr hazırlığının səmərəli təşkili idarəetmə fəaliyyətindən çox asılıdır. Pedaqoji kollektivin idarə olunması istər dövlət sənədlərində, istərsə də ictimai elmlərin qarşısında yeni vəzifələr qoyur. Bu vəzifə-

lərin elmi şəkildə araşdırılması və həlli yollarının göstərilməsi xüsusi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq ali təhsil sisteminin fəaliyyəti, rəhbər və işçilərin qarşılıqlı münasibətləri və bunun fəaliyyətin səmərəliliyinə təsiri öyrənilir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən ali təhsil sistemində çalışan işçilər, rəhbərlər öz fəaliyyətlərinin səmərəliliyinin artırılmasında idarəetmə metodlarının tətbiqində istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi, 25 oktyabr 2013-cü il
2. Əliyev R.İ., Əliyeva G.B. Mühit. İdeologiya. Şəxsiyyət. Bakı: ADPU, 2015.
3. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
5. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
6. Məmmədov Y.Ə. Azərbaycan Dövlət Pedaqoji Universiteti – 90. Bakı: Təhsil, 2012.
7. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
8. “Təhsil haqqında Azərbaycan Respublikasının qanunu”. Bakı: Hüquq ədəbiyyatı, 2009.


**Ш. Шахмамедова**

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ СТАНОВЛЕНИЯ, РАЗВИТИЯ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

***РЕЗЮМЕ***

В статье рассматриваются современные проблемы становления, развития системы высшего образования в общественно-историческом аспекте, причины, изменения форм, методов и методологии высшего образования на различных этапах. Указывается, что в разные периоды образование служило различным целям.

В статье нашли отражение содержание, вопросы возникновения системы высшего образования в Древнем Риме, Греции, далее в России. А также описывается развитие, современное состояние системы высшего образования Азербайджана.

**Sh. Shahmammadova**

## ESTABLISHMENT, DEVELOPMENT AND MODERN PROBLEMS OF HIGHER EDUCATIONAL SYSTEM

***SUMMARY***

In the article the foundation of higher educational system, its establishment and modern problems are studied in the social-historical aspect, in each level the changes, taking place in the form, method and methodology are investigated. It is pointed out that at different periods education served for the realization of different purposes.

In the article the contents of education, explanation of the creation of the system of education in ancient Greece and Rome, later on in Russia, have found their reflections. Simultaneously, the system of education in Azerbaijan, its development and modern situation in education are reflected.

**Redaksiyaya daxil olub:** 21.02.2018